**Vəfa Eminova**
*Azərbaycan Dillər Universiteti*
*https://orcid.org/0009-0004-0731-8385*

10.30546/2518-752X.1.601.028

# MÜASİR İNGİLİS DİLİNDƏ *-ISM* VƏ *-SHIP* ŞƏKİLÇİLƏRİLƏ DÜZƏLƏN ABSTRAKT İSİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *sözdüzəltmə, leksik-semantik xüsusiyyətlər, affiks sistemi, morfemlər, polisemiya, törəmə sözlər*

***Keywords:*** *word-building, lexico-semantic features, affixal system, morphemes, polysemy, derived words*

***Ключевые слова:*** *словообразование, лексико-семантические особенности, аффиксальная система, морфема, полисемия, производные слова*

**Giriş.** Söz yaradıcılığı qrammatika və lüğətlə sıx bağlıdır. Sözlər bir tərəfdən mövcud qrammatik qaydalara uyğun düzəlirsə, digər tərəfdən isə lüğət tərkibini zənginləşdirir. Dilçilikdə sözyaradıcılığından bəhs edərkən üç əsas üsul qeyd olunur. Bunlar: *leksik*, *morfoloji* və *sintaktik* usullardır. Morfoloji üsul sözyaradıcılığında morfoloji vahidlər vasitəsilə yeni sözlərin yaranması kimi şərh edilir. Bu vahidlərdən şəkilçilərin, yəni affikslərin rolu danılmazdır. Affiksasiya lüğətin inkişafıdır. Müasir ingilis dilində yeni sözlərin əmələ gəlməsinin məhsuldar üsullarından biri affikslər vasitəsilə olan sözyaradıcılığıdır. İngilis dilində affiksiyanın əsas funksiyası nitqin bir hissəsini digərindən yaratmaqdır; ikinci dərəcəli funksiya eyni nitq hissəsinin leksik mənasını dəyişməkdir. İki növ affiks var; *törəmə* və *funksional* affikslər. Leksikologiya ilk növbədə törəmə affikslərlə məşğul olur, digər qrup funksional affikslər isə qrammatikanın sahəsidir. Affikslər yeni söz yarada, leksik-qrammatik funksiya daşıya bilər.

Bu məqalədə affiklər vasitəsilə, daha dəqiq desək ***-ism*** **və** ***-ship*** şəkilçilərilə düzələn leksik vahidlərin leksik-semantik xüsusiyyətləri araşdırılmışdır.

## 1. *-ism* şəkilçisilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətləri

**Müzakirə.** ***-ism*** şəkilçisi ingilis dilinə *-**isme*** şəkilçisi olan alınma fransız sözündən daxil olmuşdur. Müasir ingilis dilində -***ism*** müxtəlif elmi, nəzəri, ictimai-siyasi, elmi baxış və təmayülləri bildirən mücərrəd isimlərin sözdüzəldici şəkilçisi kimi geniş yayılmışdır. Məs.: idealism, colonialism, fascism, symbolism, romanticism, Aristotelism, Platonism və s.

Bu şəkilçinin ən məhsuldar olduğu dövr elm və texnikanın inkişafı ilə əlaqədar XVIII-XIX əsrlərə təsadüf edir [1, 102].

***-ism*** şəkilçisinin köməkliyi ilə mücərrəd isimlərin yaradılması həm isim və həm də sifət əsaslarından mümkündür. Bu zaman *-ism* şəkilçisi aşağıda verilmiş semantik siniflərlə birləşə bilir:

1. Müəyyən elmi təlimlər, ictimai-siyasi və fəlsəfi baxış və təmayüllərin müəlliflərini bildirən xüsusi adlar. Məsələn: Leninism, Marxism, Darvinism, Platonism, Tomism, Spinosism, Luterism, Calvinism [6].

2. Mənsubiyyət, sədaqət, elmi cərəyan, fəlsəfi, elmi, ictimai-siyasi təlim və təmayüllərə müəyyən şəxslərin münasibətini bildirən sifətlər. Bu cür sifətlər adətən ***-an, -ian, -ean*** şəkilçilərinin köməkliyi ilə xüsusi ad əsaslarından düzəldilir. Məsələn: Confucianism Konfusinin elmi təlimi; Epicureanism Epikürün elmi təlimi; Fabianism fabianlıq; Voltairianism Volterin elmi təlimi; Hegelianism, Leibnitzianism, Baconianizm, Kantianism, Vesleyanizm (Con Vesleyin öyrətdiyi ilahiyyat sistemi) [3].

3. Nəyəsə mənsub, aid olan, hansısa xassə, xüsusiyyət, eyniyyəti daşıyan, nəyəsə xaslıq, nədənsə ibarət olan, nə iləsə əlaqəli və ya aidiyyəti olan mənalı sifətlərin çoxsaylı semantik sinifləri. Bu cür sifətlər adətən ***-al, -ic, -ive, -ary*** şəkilçiləri ilə düzəlir. [4, s.184]

Bu semantik sinifdən olan və *-ism* şəkilçisi ilə bitən törəmə sözlərin 50%-i *-al* ilə bitən sifətlərdən düzələn sözlərin payına düşür.

Bu semantik sinfə aid sözlərdən düzəldilmiş və *-ism* ilə bitən isimlər əsasən, elm və ictimai-siyasi ədəbiyyatda işlədilərək mücərrəd keyfiyyət və nəzəriyyə, cərəyan, təlim və s. adlandırılır. Məsələn: conventionalism şərtilik, adilik (müq. conventional), departmentalism bürökratizm (müq. departmental); existentialism ekzistensializm (müq. existential); formalism formalizm (müq. formal); cynicism sinizm (müq. cynic); didacticism didaktizm (müq. didactic); lyricism lirizm (müq. lyric); pacifi(ci)sm pasifizm (müq. pacific); positivism pozitivizm (müq. positive); relativism (fəls.) relativizm (müq. relative); objectivism obyektivizm (müq. objective); militarism militarizm (müq. military); parliamentarism parlamentarizm (müq. parliamentary); revolutionarism inqilabilik (müq. revolutionary) [5].

4. Hər hansı millət, xalq, ölkə, müəyyən yer və s., dilini bildirən sifətlər. Bu halda *-ism* şəkilçisi dialektivzm və ya nitq xüsusiyyətini bildirir. Məsələn: Americanism, Anglicism, İtalicism, vulgarism, provincialism, foreignism, modernism, newspaperism və s. [2].

Bu cür isimlər həm də üslubun bildirilməsi üçün işlədilir və bu halda *-ism* şəkilçisi sözügedən müəllifin adına birləşir. Məsələn: Byronism, Pushkinism, Carlylism.

Dildə *-ism* şəkilçisi ilə düzəlmiş və üslubi çalar əlavə olunmuş bir sıra düzəltmə sözlər var. Bu cür sözləri düzəltməklə, *-ism* şəkilçisi hörmətsiz və alçaldıcı məna çaları ilə işlədilən isim və sifət kökləri ilə birləşir. Bu cür düzəldilən isimlər çox vaxt yarımsistem və ya doktrina anlayışını ifadə edir: egotism eqoizm; babyism uşaqlıq; blackguardism alçaqlıq, pislik; defeatism məğlub olmuşluq; gangsterism qansterlik; idiotism idiotçuluq; knownothingism 1) nadanlıq; 2) (fəlsəfi) agnosisizm; scoundrelism aşağılıq, alçaqlıq. [5, s.167]

Tibb sahəsində ***-ism*** ilə bitən sözlər çox vaxt anormal vəziyyət mənasını bildirir. Məsələn: alcoholism alkoqolizm; deafmutism kar-korluq; anomalism anomallıq, anormallıq və s. [1]

Əksər hallarda *-ism* ilə bitən isimlər *-ize* ilə bitən feil və *-ist* ilə bitən isimlərlə uzlaşır. Məsələn: realize – realizm – realist, secularize – secularism – secularist, idealize – idealism – idealist. Bu uzlaşma onunla izah olunur ki, ***-ize, -ism, -ist*** şəkilçiləri eyni semantik siniflərdən yeni sözlər düzəldir.

***-ism, -ness, -ity*** şəkilçilərindən düzəldilmiş sözləri müqayisə etsək, bu şəkilçilərin mənalarındakı fərqləri asanlıqla görmək mümkündür. Yuxarıda da qeyd edildiyi kimi, *-ism* şəkilçisi elmi təlim, əqidə, nəyəsə sadiqlik, sistem, doktrina və s., göstərilməklə mürəkkəb isimlər düzəltdiyi halda, *-ness* və *-ity* şəkilçiləri keyfiyyət, əlamət, şərt, hal və s., mücərrəd mənalar verir. Müqayisə üçün aşağıda verilmiş isimlərin mənalarını nəzərdən keçirək: formalism formalizm, pedantlıq və formality təsbit olunmuş norma və qaydalara riayətkarlıq, formallıq; realism realizm və reality reallıq, həqiqət; opportunism opportunizm və opportunity əlverişli vəziyyət, imkan; simplism sadələşdirmə və simplicity sadəlik, sadəlövhlük; subjectivism (fəl.) subyektivizm və subjectivity subyektivlik.

***-ism*** şəkilçisinin köməkliyi ilə mücərrəd isimlərin yaradarkən müəyyən morfoloji və fonetik dəyişikliklər baş verir. [3, s.142]

Birincisi, bəzi hallarda ***-ary, -ic, -ent*** şəkilçiləri ilə bitən sifət əsaslarının qısaldılması baş verir. Məsələn: exclusionism <exclusionary, somnolism < somnolent, cynicism <cynic.

İkincisi**, *-ism*** şəkilçisinin köməkliyi ilə frazeologizm, dialektizm, nitq xüsusiyyəti mənalı şəkilçilər yaradıldığı halda *-ism* şəkilçisinin birləşdiyi sifət şəkilçisi (bir qayda olaraq, bu *-ish* şəkilçisidir) də atılır və mürəkkəb ***-icism*** şəkilçisi artırılır. Məsələn: Irish – Iricism, British – Briticism. [1]

Üçüncüsü, ***-ar*** ilə bitən sözlərdə söz kökünün son səsi (r) olur. Məsələn: secular dünyəvi; secularism kilsədən azad məktəb uğrunda mübarizə.

Dördüncüsü, *-ism* artırıldıqda ***-ic*** şəkilçisi ilə bitən sifətlərdə şəkilçinin **(k)** kar samiti **(s)-**ya keçir. Müqayisə edin: classic – classicism; attic – atticism; didactic – didacticism.

## 2. *-ship* şəkilçisilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətləri

Tarixi ***-ship*** şəkilçisi mürəkkəb isimlərin ikinci komponenti kimi çıxış edən **scipe** ismindən sözdüzəltmə prosesində yaranmış və inkişaf etmişdir (mənəvi-psixoloji vəziyyət, əqidə, ruhi halət; meyllilik, hal, ad, vəzifə). Qədim ingilis dövrünün sonuna yaxın **scipe** elementinin şəkilçiyə keçidi ona görə başa çatdı ki, o zamana qədər scipe müstəqil leksik vahid kimi əhəmiyyətini itirdi. İlkin mərhələdə -*ship* şəkilçisi mücərrəd isimləri yalnız qədimi əsaslardan düzəltdiyi halda, 12-ci əsrdən başlayaraq, roman əsaslarına da birləşməyə başladı [1, 89].

Qədim ingilis dilində -ship şəkilçisi həm isim və həm də sifət əsasları ilə eyni qaydada birləşə bilirdi. 13-cü əsrdə o əsasən, sifət əsasları ilə birləşirdi. Müasir ingilis dilində *-ship* şəkilçisi mücərrəd isimləri yalnız isim əsaslarından düzəldir. Əsası sifət olan *-ship* ilə bitən törəmə sözlər hələ qədim – orta ingilis dövrlərində düzəldilmişdi. Məsələn: falseship yalan, xainlik; hardship məhrumiyyət, ehtiyac; madship ağılsızlıq; swiftship cəldlik; wildship vəhşilik. Lakin bu cür sözlərin hamısı yerini eyni məna kəsb edən və dildə hal-hazırda işlədilməyən *-ness* şəkilçili sözlərə vermişdir [6, s.57].

Beləliklə, müasir ingilis dilində *-ship* şəkilçisi substantiv əsaslardan olan mücərrəd isimlərinin düzəldilməsi üçün işlədilir və birləşdikdə aşağıdakı mənaları bildirir:

1) hal və ya keyfiyyət mənası (birgəlik məna çaları ilə);

Bu halda *-ship* şəxsi bildirən isim köklərinə birləşir və onlara söz kökünün bildirdiyi hal, vəziyyət və ya keyfiyyət mənasını verir. Məsələn: authorship müəl-

liflik (müəllif olmaq hal və ya keyfiyyəti); directorship direktorluq (direktor olmaq halı); friendship dostluq (dost olmaq halı); membership üzvlük (üzv olmaq halı); companionship ünsiyyət, yoldaş münasibətləri (yoldaş olmaq hal və ya vəziyyəti); comradeship yoldaş münasibətləri (yoldaş olmaq halı) və s. [7]

2) vəzifə, peşə, ad, rütbə mənaları;

Bu mənanı ifadə edərkən, -*ship* şəkilçisi şəxsi bildirən isim köklərinə birləşsə də, birinci semantik sinifdən fərqli olaraq, bu qrupa aid isimlər müəyyən fəaliyyət növü ilə məşğul olan şəxsləri bildirir. Məsələn: championship çempion adı; clerkship katib vəzifəsi; generalship general adı, rütbəsi; ladyship ledi titulu, adı; mastership müəllim adı; pageship mürəttib vəzifəsi; readership mühazirəçi vəzifəsi; (birgəlik) oxucular; chancellorship kansler adı; (birgəlik) kargüzarlıq; chairmanship sədr vəzifəsi [7].

3) ***-man (-woman)*** şəkilçili isim sifətlərinə birləşərək -*ship* şəkilçisi ustalıq, zirəklik, bacarıq mənasını bildirir. Məsələn: horsemanship at sürmə ustalığı; draftmanship rəsm çəkmə ustalığı; markmanship dəqiq atıcılıq bacarığı; oarsmanship avarçəkmə ustalığı, bacarığı; penmanship yazı bacarığı, dəqiq yazı; ropemanship kanat üzərində hərəkət etmək ustalığı; alpinist ustalığı; salesmanship alıcı tapma ustalığı; mal təqdim etmək ustalığı; seamanship dənizdə üzmə ustalığı; statesmanship dövlət idarəçilik ustalığı və s. [4]

4) Bir sıra törəmə sözlərə rast gəlinir ki, onlarda -*ship* şəkilçisi birgəlik mənasını bildirir. Bu cür mücərrəd isimlərin düzəldilməsi üçün bu şəkilçi şəxs və ya (nadir hallarda) yaşayış məntəqələrini bildirən isim kökləri ilə birləşir. Məsələn: fellowship yoldaşlıq; qardaşlıq; korporasiya; partnership tərəfdaşlıq, kompaniya; trusteeship qəyyumluq; himayədarlıq; township (şəhər, icma sakinləri).

Müasir ingilis dilində -*ship* şəkilçisi az məhsuldardır. O, yalnız "ustalıq, zirəklik, bacarıq" mənalı mücərrəd isimləri düzəldir. Marçandın qeyd etdiyi kimi, -*ship* şəkilçisi hal-hazırda başqa mənalarda işlədilmir.

**Nəticə.** Dilin lüğət tərkibinin zənginləşməsində sözyaradıcılığı mühüm rol oynayır. Sözyaradıcılığının ən əsas üsullarından biri affikslər vasitəsilə olan sözyaradıcılığıdır. Suffikslər affikslərin elə növüdür ki, onları söz kökünün sonuna artırmaqla dildə yeni semantik sözlər əmələ gəlir.

Biz bu məqalədə ***-ism*** **və** ***-ship*** şəkilçilərilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətlərini ictimai, siyası, texniki və bədii materiallardan götürülmüş nümunələr əsasında ətraflı şəkildə təhlil etdik və belə bir məntiqi nəticəyə gəldik:

**1)** ***-ism*** şəkilçisi ingilis dilinə fransız mənşəli ***-isme*** sözündən alınıb. -***ism*** şəkilçisi elmi təlimlər, ictimai-siyasi və fəlsəfi baxış və təmayüllərin müəlliflərini bildirən mücərrəd isimləri, məs: Darwinism, pragmatism, nihilism; ***-an, -ian*** **və** ***-ean*** şəkilçilərilə bitən sifət əsaslarına birləşərək təlim və təmayüllərə münasibəti bildirən mücərrəd isimləri, məs: Americanism, Kantianism; ***-al, -ic, - ive*** **və** ***-ary*** şəkliçilərilə bitən sifətlərə birləşərək nəyəsə mənsub olan mücərrəd isimləri, məs: materialism, idealism, nationalism, romanticism, panicism, collectivism, aggressivism, missionaryism, honorraryism; hər hansı millət, ölkə və yerə mənsub olan dili ifadə edən sifətlərdən mücərrəd ismləri, məs: Cubanism, Britishism, Arabism; müəllif adına birləşərək üsubu ifadə edən mücərrəd isimləri, məs: Marxism, Freudianism, Nietzscheanism; hörmətsiz və alçaldıcı məna çalarlarını ifadə edən isim və sifət köklərinə birləşərək mücərrəd isimləri, məs: ableism, misanthropism,

ageism, sexism, racism; tibbi sözlərə birləşərək anormal hal və vəziyyəti ifadə edən mücərrəd sözləri əmələ gətirir, məs: autism, parkinsonism, dysmorphism və s. Tədqiqat prosesində belə bir qənaətə qəldik ki, müasir ingilis dilində **-ism** şəkilçisi kifayət qədər məhsuldar şəkilçidir.

Elmi məqalədə daha bir sözdüzəldici şəkilçi, ***-ship*** şəkilçisi ətraflı şəkildə tətqiq edilib. ***-ship*** sözdüzəldici şəkilçisi fransız mənşəli ***-scipe*** isimindən sözdüzəltmə prosesində yaranıb və inkişaf edib. Bu şəkilçi XII əsrdən başlayaraq roman əsaslarına birləşməyə başladı və ***-ship*** şəkilçisi hal və ya keyfiyyət mənasını bildirən mücərrəd isimləri, məs: athorship – müəllif olmaq hal və keyfiyyəti; vəzifə, peşə və rütbə mənalarıni ifadə edən mücərrəd isimləri, məs: mastership – müəllim adı, chairmanship – sədrlik etmək qabiliyyəti; ***-man*** **(-woman)** şəkilçili isimlərə birləşərək ustalıq və bacarıq mənasını bildirən mücərrəd isimləri, məs: penmanship – yazı bacarığı, statesmanship – dövlət idarəçilik ustalığı; şəxs və ya yaşayış məntəqlərini bildirən isim köklərilə birləşərək mücərrəd isimləri düzəldib, məs: partnership – tərəfdaşlıq, township – şəhər və ya icma sakinləri və s.

Tədqiqat prosesində müəyyən etdik ki, müasir ingilis dilində ***-ship*** şəkilçisi məhsuldar sözdüzəldici şəkilçi deyil. O hazırda yalnız spesifik kontekstlətdə işlənir, məs: gamer-ship, blogger-ship və s. Nümunələrdən göründüyü kimi ***-ship*** suffiksilə düzələn leksik vahidlərin sayı ***-ism*** suffiksilə müqayisədə hədsiz dərəcədə azdır. Artıq ***-ship*** şəkilçisi Orta İngilis dili dövründən (1150-1500 A.D.) Müasir İngilis dili dövrünədək (1500-Present) (XV-XVII) olan zaman kəsiyində, yəni XII əsrdən – XVII əsrədək olduğu kimi məhsuldar deyil. Beləki, XVII əsr **-ship** şəkilçisinin çiçəklənən dövrü hesab edilir, çünki V.Şekispirin və İ.Nyutonun əsərlərində ***-ship*** şəkiliçili leksik vahidlər daha çox işlənib.

**Ədəbiyyat:**


1. Зятковская, Р. Г. (1971). Суффиксальная система современного английского языка. Москва: Высшая школа.
2. Леонтьева, С. Ф. (1974). Отрицательные аффиксы в современном английском языке. Москва: Высшая школа.
3. Мешков, О. Д. (1986). Словообразование современного английского языка. Москва. с. 187.
4. Карашук, П. М. (1977). Аффиксальное словообразование в английском языке. Москва, с. 186–187.
5. Arnold, I. V. (1986). The English word. Moscow.
6. Hajiyeva, A. (2011). English lexicology. Baku: Science and Education. 248 p.
7. Bauer, L. (1983). English word-formation. Cambridge: Cambridge University Press. 311 p.


**İnternet saytları**


8. https://www.bbc.co.uk/
9. https://www.bsu.by/upload/pdf/229523.pdf
10. http://www.dailymail.co.uk
11. http://www.express.co.uk
12. http://www.ft.com
13. http: www. words-ism .html
14. http: www. –ship –suffix.htlm

**Vefa Eminova**

**Summary**

**LEXICAL-SEMANTIC FEATURES OF ABSTRACT NOUNS FORMED BY THE SUFFIXES *'-ISM'* AND *'-SHIP'* IN MODERN ENGLISH**

The suffixes ***-ism*** and ***-ship*** are non-productive in modern English, though they played significant roles in forming abstract nouns. ***-ism***, borrowed from French -***isme***, was highly productive in the 18th and 19th centuries, driven by advancements in science and technology. It forms complex nouns from noun and adjective roots, expressing ideas related to scientific teachings, philosophical views, loyalty, and socio-political trends (e.g., *Lutherism*, *Fabianism*). It also conveys possession, style, derogatory connotations (e.g., *idiotism*), and abnormal medical conditions (e.g., *anomalism*).

The suffix ***-ship***, derived from the Old English noun ***-scipe***, developed from noun roots and began to merge with Roman roots by the 12th century. It forms complex nouns signifying abstract qualities (e.g., *authorship*), titles or ranks (e.g., *mastership*), and skills or mastery (e.g., *statesmanship*). Despite its historical importance, *-ship* now forms only limited terms related to mastery and skill.

Both suffixes have lost their productivity in modern English but still contribute to the language's lexical-semantic features.



**Вэфа Эминова**

**Резюме**

**ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ АБСТРАКТНЫХ СУЩЕСТВИТЕЛЬНЫХ, ОБРАЗОВАННЫХ С ПОМОЩЬЮ СУФФИКСОВ *'-ISM'* И *'-SHIP'* В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ**

Суффиксы ***-ism*** и ***-ship*** являются непродуктивными в современном английском языке, хотя они сыграли значительную роль в образовании абстрактных существительных. Суффикс ***-ism***, заимствованный из французского ***-isme***, был особенно продуктивен в XVIII-XIX веках, чему способствовали достижения в науке и технике. Он образует сложные существительные от корней существительных и прилагательных, выражая идеи, связанные с научными учениями, философскими взглядами, верностью и социополитическими направлениями (например, *лютеранство*, *фабианизм*). Суффикс также передаёт значения обладания, стиля, уничижительных коннотаций (например, *идиотизм*) и аномальных медицинских состояний (например, *аномализм*).

Суффикс ***-ship***, происходящий от древнеанглийского существительного -***scipe***, развивался от корней существительных и начал сливаться с римскими корнями к XII веку. Он образует сложные существительные, обозначающие абстрактные качества (например, *авторство*), титулы или ранги (например, *мастерство*), а также умения и навыки (например, *государственное управление*). Несмотря на историческое значение, *-ship* теперь используется только для образования ограниченных терминов, связанных с мастерством и умениями. Оба суффикса утратили продуктивность в современном английском языке, однако продолжают вносить вклад в лексико-семантические особенности языка.


*Rəyçi: dos. C.Babayev*